# Bura Şəkidir...





Elə qədim tikililər, abidələr var ki, onların qarşısında "muzey" sözünü yazmağa ehtiyac qalmır. Burada hətta bələdçisiz də keçinmək olur. Bu binalar sanki özləri danışır, tarixləri, təyinatları, əhəmiyyətləri barədə məlumat verir.

Şəkidə belə memarlıq abidələri çoxdur. Tarixin bu əvəzsiz yadigarlarına maraq azalmır, əksinə, onlar getdikcə diqqəti daha çox cəlb edir. Bu yaxınlarda "Xan sarayı ilə birgə Şəkinin tarixi mərkəzi"nin UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi deyilənlərin təsdiqidir.

Bu fotolar da Şəkinin mərkəzində obyektivə alınıb. Şəkildəki qədim tikililər təkcə tarixilik baxımından, yəni tarixi yaşatdıqları üçün deyil, digər səbəblərdən də dəyərlidir. Əvvəla, bura açıq səma altında bənzərsiz bir muzeydir. Həmişəcavan tikililərin ətrafa gözəllik, uzaqdan-yaxından gələn qonaqlara zövq-səfa bəxş etməsi də öz yerində... Tikililərdən həmçinin səmərəli istifadə olunması, binalarda muzey, mehmanxana, mağaza, kitabxanaların yerləşdirilməsi təqdirəlayiq haldır.

***"Azərbaycan"***
***Foto Fərman BAĞIROVUNDUR***